AYTƏN SALAMİ

# AstroLove

qanun nəşriyyatı

*“AstroLove” yalnız bir sevgi kitabı deyil – bu, doğru partnyoru tapmaq və münasibətlərdə həqiqi uyğunluğu kəşf etmək üçün kosmik bir bələdçidir. Hər səhifədə astroloji enerjilərin sirrləri açılır, romantik əlaqələrdə balans və harmoniyanın yolları aydın şəkildə göstərilir. Oxuyarkən həm öz daxili dünyanı, həm də potensial partnyorunu daha dərindən anlayacaq, sevgi həyatında ən doğru seçimləri etməyi öyrənəcəksən. Bu kitab, sevginin sadəcə duyğu deyil, həm də mənəvi və kosmik bir səyahət olduğunu göstərir – və sən də bu səyahətə başlamağa hazırsan.”*

# *Mündəricat*

**I bölüm: Giriş və Müəllifdən**

1. Müəllifdən ........................................ 7
2. Eşqin Kimyası
   Sevgini Anlamaq Sənəti ........................................ 13
3. Astrologiyanın işığında
   doğru partnyoru seçmək ........................................ 17

**II bölüm: Münasibətin Təməli**

1. Doğru Münasibətin Təməli
   Özünü Tanımaqdan Başlayır ........................................ 25
2. Ruh əkizi yoxsa ruh eşi?
   Gerçək duyğu bağlarını kəşf et ........................................ 29

**III bölüm: Münasibətin Təməli**

1. İki Xəritənin Uyğunluğu
   Sinastrinin Sirləri ........................................ 38
2. Bürc Uyğunluğu və
   Sevgidə Daxili Balans ........................................ 47

3. Eril və Dişi Enerji:
Günəş və Ayın Uyğunluğu................................52
4. Ay Bürcünün Rolu ............................................67
5. Partnyorunuzun Duyğularına
Yol Xəritəsi ..........................................................67

***IV bölüm: Sevgidə Planetlərin Rolu***

1. Merkurinin İşığı.
Sevgidə Anlayış və Dostluq...............................77
2. Marsın Gücü Münasibətlərdə
Tutqu və Enerji ................................................. 89
3. Sevginin Dili Venera
Sevgi Bağlarının Açarı....................................102

***V bölüm: Sevginin Daxili və Kosmik Boyutu***

1. Özünü Tanımaq
Doğru Münasibətin Ən Vacib Addımı ..........121
2. Sevginin Ruhani Boyutu
Kainatın Sənə Verdiyi Dərslər.......................123

***VI bölüm: Nəticə və Son Söz***

1. Sevginin irəliləməsi
Ən doğru insan öz daxili balansındır..........125
2. “Sevgi Öz Xəritəndən Başlayır”..................... 127
3. Müəllifdən Son Söz ........................................129

# *Müəllifdən*

**Niyə bu kitab?**

Münasibətlər insan həyatının ən dərin, ən mənalı və bəzən də ən mürəkkəb sahələrindən biridir. Biz kim olmağımızdan, harada yaşamağımızdan asılı olmayaraq, hər zaman sevgi və paylaşım axtarırıq. İnsan ruhunun bu ehtiyacı tarix boyu dəyişməyib. Doğru insanı tapmaq sadəcə romantik bir təsadüf və ya "qismət" deyil bu, eyni zamanda, insanın öz daxili dünyasını tanıması, həyat yolunu dərk etməsi və düzgün seçim etməsi ilə əlaqəlidir. Həyatımıza daxil olan insan bizim enerjimizi, duyğularımızı, seçimlərimizi formalaşdırır, dünyaya baxışımıza təsir edir.

İki insanın birlikdəliyi sadəcə bir münasibət deyil, o, iki ruhun, iki enerjinin və iki həyat yolunun bir-

ləşməsidir. Bu birləşmə əgər harmonikdirsə, insanı gücləndirir, onu daha xoşbəxt, daha yaradıcı və daha sağlam edir. Amma əgər uyğun olmayan bir seçim edilirsə, bu zaman münasibət daxili boşluqları doldurmur, əksinə, insanı daha çox yorur, ruhunu incidir, öz potensialını reallaşdırmaqdan uzaqlaşdırır.

Bu kitabı yazmaqda məqsədim oxuculara romantik münasibətlərə və partnyor seçiminə fərqli bir baxış bucağı təqdim etməkdir. Mən istəyirəm ki, siz bu kitabın hər səhifəsində yalnız bir bürcün təsviri ilə kifayətlənməyəsiniz. Bu kitabın missiyası – sizin həyatınıza daxil olacaq insanı yalnız Günəş bürcünə görə deyil, onun tam enerjisi, xarakteri, emosional dünyası və potensialı əsasında tanımağınıza kömək etməkdir.

Çünki münasibətlərdə ən böyük yanılma məhz bu nöqtədə baş verir: insanların əksəriyyəti qarşısındakı şəxsin yalnız xarakterinə və ya zahiri xüsusiyyətlərinə baxır. Halbuki bir insanın münasibətdə göstərəcəyi şeylər təkcə xarakterindən ibarət deyil. Onun düşüncə tərzi, duyğularını ifadə etmə üsulu, sevgi vermək və almaq bacarığı, yaxınlıq və məsafə hissi, münasibət üçün sərf edəcəyi enerji – bütün bunlar aydın şəkildə onun doğum xəritəsində əks olunub.

Astrologiya məhz bu səbəbdən çox dərin bir vasitədir. Cütlüklərin xəritələrini müqayisə etməklə siz həm özünüzü, həm də partnyorunuzun iç dünyasını daha yaxşı anlaya bilərsiniz. Bu analiz sayəsində gələcəkdə münasibətinizdə üzləşə biləcəyiniz çətinlikləri əvvəlcədən görə, onlara hazır ola və hətta önləyə bilərsiniz. Bu yalnız uyğunluğu ölçmək deyil, həm də münasibətdə hansı mövzularda güzəşt etməli olduğunuzu, hansı sahələrdə isə sərhədlərinizi qorumağınız lazım olduğunu anlamağa kömək edir.

Bu kitabda siz partnyorunuzla bağlı bütün suallarınıza cavab tapacaqsınız. Siz onun xarakterini, münasibətdə necə davrandığını, sizinlə ruhsal və emosional səviyyədə nə dərəcədə uyğun olduğunu əvvəlcədən anlaya biləcəksiniz. Bu bilik sizə seçim edərkən tamamilə fərqli bir baxış bucağı qazandıracaq. Artıq münasibətinizin hansı potensiala sahib olduğunu bilmədən, sadəcə hisslərinizə görə qərar vermək məcburiyyətində qalmayacaqsınız.

Bu kitab sadəcə bir məlumat mənbəyi deyil, eyni zamanda, özünüzü kəşf etməyiniz və münasibətlərinizdə doğru rəhbər olmaq üçün bir bələdçi olacaq.

Siz öz doğum xəritənizi öyrəndikcə, oradakı göstəricilərin sizə və sevdiyiniz insana necə təsir etdiyini anladıqca, həyatınıza yalnız sizi həqiqətən xoşbəxt edə biləcək insanları qəbul etməyi öyrənəcəksiniz.

Unutmayın: düzgün seçilmiş partnyor bu dünyada cənnəti yaşamaq qədər dəyərlidir. Əgər bir insan həyatına kimin daxil olacağını şüurlu şəkildə seçirsə, yalnız sevgi deyil, eyni zamanda, daxili rahatlıq, güvən, hörmət və birgə inkişaf üçün zəmin yaradır. Bu kitabın hər bölməsində sizə həm astroloji biliklər, həm də gündəlik həyatda tətbiq edə biləcəyiniz praktik yanaşmalar təqdim olunacaq.

Bu kitabı oxuyarkən özünüzə də güzgüdən baxın: sizin doğum xəritəniz nəyi göstərir? Siz münasibətə hansı enerjini gətirirsiniz? Hansı sahələrdə daha çox dəstəyə ehtiyacınız var? Bu suallara cavab tapdıqca siz həm özünüzü, həm də partnyorunuzu daha dərindən anlayacaqsınız.

Sizə xoş mütaliələr ...

Unutmayaq, doğru seçilmiş partnyor bu dünyada cənnəti yaşamağa bərabərdir.